# Azərbaycanın COVID-19 həqiqətləri

# DÜNYA MƏTBUATINDA

**Azərbaycanın koronavirus pandemiyasına qarşı mübarizəsi, ölkəmizdə karantin qaydalarının tətbiqi xarici mətbuatın da diqqətindədir. Rusiyanın "TASS" agentliyinin "Boş küçələrdə sakitlik. Azərbaycanda həftəsonu karantin necə keçir" sərlövhəli məqaləsi məhz bu mövzuya həsr olunub.**

Məqalədə Azərbaycan hökumətinin ölkədə koronavirusa yoluxma sayının kəskin artması səbəbindən istirahət günləri üçün elan etdiyi "Evdən çıxma!" qadağası və paytaxtın küçə, prospekt və parkların tam boşalması qeyd edilib. Vurğulanır ki, vətəndaşlara iki gün ərzində evdən çıxmaq qadağan edilib, mağaza, aptek və restoranlar bağlanıb, ictimai nəqliyyat işləməyib. Müəllif bu günlərdə hüquq-mühafizə orqanlarının əməkdaşları və post-partul xidmətinin işçilərinin karantin şəraitində yorulmadan çalışması və sürücülərin hərəkət üçün xüsusi icazəsinin olub-olmamasını yoxlamaları vurğulanır. Məqalədə qeyd edilir: "Belə icazələr yalnız ümumi karantin şəraitində fəaliyyətini davam etdirən dövlət idarə və müəssisələrinin xidməti avtomobillərinə, həmçinin təcili tibbi yardım, qəza-xilasetmə maşınlarına verilib.Yerli informasiya agentliklərindən birinin texniki dəstək xidmətinin əməkdaşı telefonla söhbət zamanı TASS-a bildirib ki, onu işdən evə gətirən xidməti avtomobili polislər bir neçə yerdə saxlayıblar. Asayişin qorunmasına Daxili Qoşunların hərbi qulluqçuları da cəlb olunub. "Şəhər tamamilə boşdur. Polis hətta yaşayış məhəllələrində həyətləri belə, yoxlayır", – deyə bildirib."

Məqalədə fikirləri öyrənilən sakinlər "...Anlamaq lazımdır ki, sərt tədbirlər insanların sağlamlığı üçündür," – deyə mövqelərini bildiriblər.

Müəllif Azərbaycanda karantin rejiminin pozulmasına görə qanunla fiziki şəxslər üçün 100 manatdan 200 manatadək, vəzifəli və hüquqi şəxslər üçün isə 1,5 min manatdan 2 min manatadək cərimə və ya 1 ayadək inzibati həbs cəzasının nəzərdə tutulduğunu bildirib.

Ərzaqla təminata gəlincə, məqalədə vurğulanır ki, sakinlər ötən cümə ikigünlük karantin üçün ehtiyyat görüblər və zəruri ərzaq məhsullarının qıtlığı yox idi.




Agentlik qeyd edir ki, Azərbaycan hökuməti yoluxma statistikasında neqativ dinamikanın davam edəcəyi təqdirdə, tam özünütəcrid təcrübəsinin növbəti istirahət günləri də tətbiq olunacağını istisna etmir. Üstəlik, bu, digər bölgələri də əhatə edə bilər.

ABŞ-ın "The Daily Signal" saytında isə "Azərbaycan iqtisadi azadlıqları irəli aparmaq üçün ciddi addımlar atır" sərlövhəli məqalə dərc edilib.

Antoni B.Kimin müəllifi olduğu məqalədə COVID-19 pandemiyası ilə əlaqədar Azərbaycan iqtisadiyyatının atdığı addımlar və verilən qərarlarla bağlı məsələlərə toxunulur. Qeyd edilir ki, Azərbaycan iqtisadiyyatının əsasını onun zəngin karbohidrogen ehtiyatları və digər təbii resursları təşkil edir. O, karbohidrogen ehtiyatları sayəsində hətta Rusiyaya alternativ ölkəyə çevrilib. Bu isə öz növbəsində, Avropanın, həmçinin nəticə etibarı ilə ABŞ-ın enerji təhlükəsizliyinə öz müsbət təsirini göstərir.

ABŞ-ın Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafında, ölkədə iqtisadi azadlıqlarda və qanunun aliliyi ilə bağlı öhdəliklərə əməl etməsində maraqlı olan enerji şirkətləri 1990-cı illərin əvvəllərindən orada neft-qaz hasilatı, həmçinin yataqların kəşfiyyatı işləri ilə məşğuldur. Müəllif qeyd edir ki, bu gün digər neft hasilatçılarında olduğu kimi, Azərbaycan iqtisadiyyatında da perspektivi ilə bağlı qeyri-müəyyənliklər yaranıb. Səbəb koronavirus pandemiyası nəticəsində enerji resurslarına tələbatın azalması, nəticədə onların ucuzlaşmasıdır.

O, daha sonra yazır: "Koronavirus pandemiyası nə vaxtsa sona çatacaq. Bu zaman iqtisadi azadlıqların təmini istiqamətində lazımi addımların atılması hər zaman olduğundan daha vacib zərurətə çevriləcək. Bu məsələdə Azərbaycan doğru yoldadır. Odur ki, onun iqtisadiyyatını tez və tamamilə bərpa edəcəyini söyləmək mümkündür. Azərbaycan heç bir halda iqtisadi azadlıqların təmini istiqamətində apardığı işlərdən imtina etməməlidir."

"İrs Fondu"nun 2020-ci ildə hazırladığı "İqtisadi azadlıq indeksi"nə görə, Azərbaycan dünyanın iqtisadi azadlıqların təminatı istiqamətində ən çox iş görən 6 ölkəsindən biridir. O, biznes, investisiya azadlığı və fiskal sağlamlıq göstəricilərinə görə, qlobal reytinqdə mövqeyini 16 pillə yaxşılaşdırıb. Bu gün Azərbaycan həmin reytinqdə 45 Avropa ölkəsi arasında 24-cü yerdədir. Beləliklə, "İrs Fondu"nun reytinqinə ilk dəfə 1996-cı ildə daxil edilmiş Azərbaycan iqtisadiyyatı ən azad ölkələr siyahısına düşməyin bir addımlığındadır.

Vurğulanır ki, Azərbaycanla ABŞ arasındakı iqtisadi və enerji əlaqələrinin fonunda, Bakının nailiyyətləri, təbii ki, Vaşinqtonun da diqqətindən yayınmır. ABŞ bu nailiyyətlərə görə Azərbaycanı dəfələrlə alqışlayıb. "Bir sözlə, Azərbaycanın strateji əhəmiyyəti danılmazdır. Xəzər dənizi hövzəsindəki ən böyük dəniz limanı bu ölkənin paytaxtı Bakıda yerləşir. Bakı Avropa ilə Mərkəzi Asiya arasındakı məhsul mübadiləsində vacib nəqliyyat qovşağıdır."--deyə nəşr qeyd edir.

Müəllif bildirir ki, Azərbaycan hər zaman iqtisadi rəqabət meydanı olub, geosiyasi əhəmiyyətə malik ölkə kimi tanınıb və bu, növbəti illərdə də belə olacaq. Onun fikrincə, dünyada vəziyyətin qeyri-müəyyən olduğu indiki dövrdə isə Bakının islahatları davam etdirməsi, iqtisadi azadlıqları daha da təkmilləşdirməsi vacibdir: "ABŞ Xəzər dənizinin sahilində yerləşən vacib tərəfdaşına bu işlərdə yardım göstərə bilər. Bunun üçün Vaşinqtonla Bakı hər iki tərəfi maraqlandıran mövzular ətrafında səmimi, açıq və konstruktiv dialoqu gücləndirməlidirlər."


**Əfsanə BAYRAMQIZI,**
**"Xalq qəzeti"**



Xalq qəzeti 2020.- 9 iyun.- S.4.